

**MUSA QULİYEV,**
Azərbaycan Respublikası
Milli Məclisinin deputatı

## TARİXİ YARADAN DAHİ

Azərbaycanın 1969-cu ildən bəri ictimai-siyasi, sosial-iqtisadi və digər sahələrdə əldə etdiyi bütün nailiyyətlər birmənalı olaraq, bu xalqın müdrik oğlu, dünya şöhrətli siyasətçi, bütün ömrünü xalqının xoşbəxtliyi uğrunda mübarizəyə həsr etmiş dahi şəxsiyyətin – cənab Prezident Heydər Əliyevin adı ilə, onun uzaqgörən siyasəti və uzunillik yorulmaz mübarizə yolu ilə bağlıdır. Cənab Heydər Əliyevin 1969-cu ildə respublika rəhbərliyinə gəldiyi zamandan başlayaraq, Azərbaycan xalqının tarixi inkişafında Azərbaycan tarixində böyük dəyişikliklər həyata keçirilmiş, məmləkətimizin intibah mərhələsi başlanmışdır.

Məhz 1969-cu ilin 14 iyulunda Azərbaycanın bütün tarixi boyunca ən böyük ictimai siyasi xadim, görkəmli dövlət başçısı, ümummilli lider, bütün dünyanın tanıdığı və böyüklüyünü dostun da - düşmənin də ehtiraf etdiyi Tarixi Şəxsiyyət - Heydər Əlirza oğlu Əliyev Azərbaycanda ali siyasi rəhbərliyə gəldi - Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi seçildi.

Heydər Əliyevin Azərbaycanın rəhbərliyinə gəlməsi illərcə yağış yağmayan, bulaqları quruyan, torpağı qovrulub sovrulan, barını qəhər kəsmiş, dağlarının otu yanmış, yollarını toz basmış, aran günəşi altında ləhləyən Azərbaycanın səmasında barlı-bəhərli yağışdan xəbər verən şimşək çaxması, göy-gurultusu kimi bir şey idi. Bu gündən başlayaraq, gerilik, ətalət basmış, öz fərasətsiz rəhbərliyinin fəaliyyətsizliyi nəticəsində yazıq, sahibsiz, fağır günə düşmüş, az qala öz kasıb qisməti ilə barışmaqda olan Azərbaycan xalqının silkələnib oyanma, qalxıb dirçəlmə günləri, taleyində böyük milli dönüş tarixi başladı.

Öz mübariz, səfərbəredici, ilhamverici və tələbkar hayqırtısı ilə Atatürk sayağı xalqın ağır günündə irəliyə sıçramış bu rəhbər adam ali vəzifəyə seçiləndən sonra qısa müddət ərzində çox yatmışları oyatdı, çox azmışları haqqın yoluna qaytardı, təkcə Azərbaycan xalqına deyil, o vaxtkı SSRİ-nin bütün ittifaq respublikalarına, eləcə də Mərkəzi hakimiyyətə bəyan etdi ki, bu cür yaşamaq və işləmək olmaz, hər şey yeniləşməlidir, canlanmalıdır, dirçəlməlidir, mütərəqqiləşməlidir.

Tarixdə demək olar ki, bütün rəhbərlər yenilikçi, mütərəqqi konsepsiya ilə hakimiyyətə gəliblər, çox gözəl sözlər danışıblar, gözəl ideyalar irəli sürüblər. Yalnız tarixdə o rəhbərlər qalıblar ki, onlar öz dediklərini həyata keçiriblər, işdə, əməldə sübut ediblər və bu fəaliyyətləri ilə millətin, dövlətin tarixində yüksəlişə, dirçəlişə nail olublar.



Heydər Əliyev məhz belə şəxsiyyətlərdəndir. Heydər Əliyev ideyalarının, Heydər Əliyev əməllərinin, Heydər Əliyev şəxsiyyətinin böyüklüyü ondadır ki, onun ideyaları, gördüyü işlər, həyata keçirdiyi tədbirlər bir, yaxud bir neçə il üçün deyil, bir neçə onilliklər, bir neçə nəsillər, bütöv bir epoxa üçün nəzərdə tutulur, planlaşdırılır, düşünülür.

1969-cu ilin 14 iyulundan sonra Heydər Əliyev Azərbaycanda hər şeyi yeniləşdirmək, saflaşdırmaq, dirçəltmək, inkişaf etdirmək, ölkəni çiçəklənən bir diyara çevirmək, xalqı xoşbəxt gələcəyə çatdırmaq uğrunda, böyük amallar uğrunda fəaliyyətə, mübarizəyə başladı.

Azərbaycan mədəniyyətinin və elminin çiçəklənməsi, iqtisadiyyatın, kənd təsərrüfatının inkişaf etməsi, sənaye potensialının intensiv artırılması, geniş sosial proqramların həyatda gerçəkləşdirilməsi məhz bu böyük tarixi şəxsiyyətin respublikaya rəhbərliyi dövrünə təsadüf edir.

Onun bu zaman kəsiyində gördüyü nəhəng işlər əsrə bərabər olan Heydər Əliyev erası kimi tarixə düşmüş və qədirbilən xalqımızın yaddaşına əbədi həkk olunmuşdur. Heydər Əliyev dəfələrlə həyatını təhlükə qarşısında qoyaraq, vətənimizin azadlığı və müstəqilliyi naminə mübarizəyə qalxmış, millətimizin ən böyük təəssübkeşi, dövlətçiliyimizin qurucusu, ölkəmizin rəhbəri kimi tarixi missiyanı öz üzərinə götürmüş, Azərbaycanımızı fəlakətlərdən xilas etmişdir.

Məhz buna görədir ki, Vətənimizin və xalqımızın taleyi təhlükədə olduğu bir vaxtda Azərbaycan xalqı öz xilasını yenə də cənab Heydər Əliyevdə gördü və gələcək xoşbəxtliyini onunla bağladı. Cənab prezident 1993-cü ildə respublikaya rəhbərliyi yenidən öz üzərinə götürməklə, Azərbaycanın milli müstəqilliyinin və dövlət suverenliyinin qorunub saxlanılmasına, daxili və xarici düşmənlərin dağıdıcı, separatçılıq hərəkətlərinin dəf edilməsinə nail oldu.

1993-cü ilin 15 iyun günü Azərbaycan xalqının və Azərbaycan məmləkətinin tarixində "olum - ya ölüm" dilemənasının həlli, xeyirin-şər üzərində, haqqın-nahaq üzərində, ağılın-zor üzərində, peşəkarlığın-diletantlıq üzərində, siyasi iradənin siyasi avantyura üzərində qələbəsi, ədalətin təntənəsi günü kimi qalacaqdır.

Azərbaycan xalqının iradəsi ilə məhz, 1993-cü ilin iyunun 15-də respublikada 1988-ci ildən başlamış olan hakimiyyət daxili və hakimiyyət ətrafı, həm də hakimiyyət uğrunda gedən didişmələrə, intriqalara, hərc-mərcliyə son qoyuldu, müstəqil Azərbaycanın dövlətçiliyinin sağlam təməl üzərində quruculuğuna başlandı.

Nə yaxşı ki, 1993-cü ilin iyununda Azərbaycan xalqı öz iradəsini, qətiyyətini nümayiş etdirərək, öz xilaskarını, böyük tarixi şəxsiyyət və görkəmli siyasi xadim Heydər Əlirza oğlu Əliyevi respublika rəhbərliyinə gətirdi.

Məhz 1993-cü ilin 15 iyununda Heydər Əlirza oğlu Azərbaycan Respublikasının Milli Məclisinin sədri seçildikdən sonra, tədricən qaranlıqlar aydınlığa çıxmağa, bulanıq sular durulmağa başladı.

Məhz cənab Heydər Əliyevin ikinci dəfə respublika rəhbərliyinə gəlişindən sonra ölkədə:

- vətəndaş müharibəsinin qarşısı alındı;
- hakimiyyət böhranı aradan qaldırıldı;
- Azərbaycanın başının üstündən Domokl qılıncı kimi asılmış separatizm və parçalanma təhlükəsi sovuşdu;
- Müstəqil Azərbaycanın dövlətçiliyinin bünövrəsi qoyuldu;
- ölkədaxili sabitlik bərqərar oldu, sosial-ictimai, iqtisadi həyatın bütün sahələrində təkamül başladı.
- Müharibə dayandırıldı, münaqişə sülh danışıqları müstəvisinə keçirildi;
- Ötən 10 ildə Azərbaycan 100 illik bir tarixi yol keçdi, dünya dövlətləri və millətləri sırasında öz inamlı imzasını qoydu;
- Ən əsası isə odur ki, xalqın öz dövlətinə və rəhbərinə olan dönməz inamı nəinki sarsılmadı, dəfələrlə sınaqlardan çıxaraq, daha da möhkəmləndi.

Heydər Əliyevin hakimiyyətə gəlişi ilə yavaş-yavaş, lakin ardıcıl olaraq ölkədə hər şey qaydasına düşməyə başladı.

Dövlət quruculuğunun təbii ki, ən mühüm istiqamətlərindən biri ordu quruculuğu sayılır. O dövrdə Azərbaycan ordusunun - əgər başıpozuq, vahid komandanlığı olmayan, nizam-intizamsız, hərəsi bir siyasi qüvvəyə, bir mafioza qulluq edən, hərbi qrupları bir yerdə ordu adlandırmaq mümkünsə, vəziyyəti son dərəcə acınacaqlı idi.

Orduda vahid komandanlıq yox idi, əmrə müzakirəsiz tabe olmaq, hərbi qayda-qanunun hamı üçün vacibliyi və s. kimi ən elementar hərbi qanunlara əməl olunmurdu.

Ordunun maddi-texniki bazası dağıdılmış, silah-sursatla təchizatı pozulmuşdu, son dərəcə güclü ruh düşkünlüyü, inamsızlıq və məğlubiyyət xofu yaranmışdı.

Orduda təxribatçılar və satqınlar meydan sulayırdı, dağıdıcılıq əhval-ruhiyyəsi hökm sürürdü, ermənilərə təslim edilmiş yaşayış məntəqələrimizi düşməndən əvvəl öz əsgərlərimiz qarət edirdilər.

Peşəkar hərbçilər ya orduya cəlb edilməmiş, ya kənarlaşdırılmış, ya da məhv edilmişdi.

Milli Azərbaycan ordusu deyilən məvhum 1993-cü il 15 iyun ərəfəsində Surət Hüseynova, Əlikram Hümbətova, Etibar Məmmədova, AXC-yə, Müsavata, Rəhim Qazıyevə və s. tabe olan və qulluq edən ayrı-ayrı hərbi dəstələrə parçalanmışdı.

Belə bir şəraitdə yenidən ordu qurmaq, onu vahid komandanlıq altına gətirmək təchizatını, nizam-intizamını gücləndirərək, Vətəni müdafiə etməyə qadir ordu yaratmaq, yox yerdən ordu yaratmaqdan qat-qat çətin idi.

Lakin ötən dövrün təcrübəsi göstərdi ki, Heydər Əliyevin əlində mümkün olmayan şey yoxdur. Məhz bizim bu gün mövcud olan və gündən-günə hərbi qüdrəti yüksələn Milli Ordumuz yalnız və yalnız Heydər Əliyevin dühası, siyasi-hərbi iradəsi, ardıcıllığı və yorulmaz fəaliyyəti, böyük sərkərdəlik qabiliyyəti sayəsində mümkün oldu.

Mən 1993-cü ilin noyabrın 2-də Prezident Heydər Əliyevin Vətən uğrunda, yurd uğrunda, millət və şərəf uğrunda xalqı mübarizəyə qaldıran və səfərbər edən məşhur çağırışını Azərbaycanda ordu quruculuğunun təməl daşı hesab edirəm.



Bu çağırışdan sonra minlərlə vətən oğlu könüllü surətdə və şüurlu şəkildə Milli Ordumuza yazılaraq, hərbi təlimlərə başladılar.

Ordu siyasiləşmiş hərbi hissələrdən təmizlənərək, vahid komandanlıq altına gətirilməyə başladı.

Təxminən 6 ay ərzində Milli Ordumuz kifayət qədər formalaşmış vəziyyətə gətirildi.

1994-cü ilin yanvar-fevral aylarında ordumuz öz Ali Baş Komandanının rəhbərliyi altında erməni-rus hərbi qüvvələri ilə ölüm-dirim savaşına girərək, son bir il ərzində ilk dəfə olaraq, düşmənin hücumunu dayandırdı. Beyləqan istiqamətində hücuma keçmiş düşmən qüvvələri geri oturuldu, Horadiz qəsəbəsi və bir neçə yaşayış məntəqəsi azad edildi.

Lakin bu qələbə deyildi, bu hələ biləyi bərkiməmiş, təlim və təcrübə keçməmiş bir yeniyetmənin məkrli düşmənə qarşı acıqlı təpkisi idi.

Azərbaycan ordusunu qurmaq üçün vaxt və iqtisadi qüdrət lazım idi.

Xalqın əzilmiş ruhunu qaldırmaq, öz gücünə, qələbəsinə inamını dirçəltmək üçün vaxt lazım idi, sabitlik lazım idi.

Bu mənada, 1994-cü ilin 12 mayında elan olunmuş atəşkəs böyük hərbi-siyasi əhəmiyyət daşıyan tarixi hadisə idi.

Atəşkəsdən 9 il ötüb. Ermənistan—Azərbaycan münaqişəsinin həlli sülh müstəvisinə keçirilib. Danışıqlar müxtəlif templə davam edir.

Bir çox beynəlxalq təşkilatlar və super dövlətlər Qarabağ probleminin çözülməsi prosesinə qoşulublar.

Məsələnin sülh yolu ilə həlli ən məqbul, ən ağrısız və itkisiz variantıdır.

Bu variantla məsələ düzəlsə, çox yaxşı olar. Düzəlməsə dəqorxumuz yoxdur. Çünki ordumuz var. Ordu var - qorxu yoxdur!

Bu gün Azərbaycan ordusunda "Canım sənə fəda olsun, Azərbaycan," - deyərək, odun-alovun içinə atıla bilən oğullarımız xidmət göstərirlər.

Bu gün Azərbaycan ordusu vahid komandanlıq tərəfindən idarə olunan hərbi-texniki qüdrəti gündən-günə artan güclü orduya çevrilməkdədir. Bu gün Azərbaycan silahlı qüvvələri NATO- kimi fövqəl-qüdrətli təşkilatla əməkdaşlıq şəraitində onun təcrübəsindən yararlanaraq inkişaf edir.

Tarixdə dəfələrlə sübut edilmişdir ki, dövlət müstəqilliyini qoruyub saxlamaq və yaşatmaq, onu əldə etməkdən daha çətindir. Azərbaycan xalqı ötən əsrdə iki dəfə öz müstəqilliyini əldə etmişdir. 1918-ci ilin mayın 28-də müsəlman şərqində ilk dəfə olaraq Demokratik Cümhuriyyət quran xalqımız ərazisi 114 min kv.km. dövlət dili-Azərbaycan dili, üç rəngli ay-ulduzlu, türklüyü, müasirliyi, islamçılığı özündə ehtifa edən bayrağı, mübariz himni, gerbi və digər dövlət atributları olan müstəqil Azərbaycanda cəmi 23 ay yaşaya bildi.

O dövrdəki ictimai-siyasi-hərbi şərait, o cümlədən dövləti və xalqı zamanın burulğanından çıxarmağa qadir, güclü, sadəcə güclü yox, tarixin gərdişinə qalib gəlmək qüdrətində olan qədər güclü rəhbərin, sükançının siyasi iradə sahibinin olmaması səbəbindən XX əsrin əvvəllərində qazandığımız müstəqilliyimiz 1920-

ci ilin aprelində bolşevik Rusiyası tərəfindən qəsb olundu. Azərbaycan 1813-cü ildən bəri işlədiyi çarizm əsarətindən 23 ay qurtulsa da, yenidən həmin imperiyanın, cavan, daha qəddar, daha amansız varisinin əsarəti altına düşdü.

Və Azərbaycan xalqı öz əbədi və əzəli arzusuna doğru daha 71 il yol getdi.

Nəhayət şeytanın yaratdığı şər imperiyası 1991-ci ildə süqut etdi, millətlər və xalqlar azadlığa çıxdı. Xalqlar öz müstəqil respublikalarını yaratdılar.

Lakin xalqımızın müstəqilliyə gedən yolu bizimlə bir zamanda müstəqillik əldə etmiş digər İttifaq Respublikalarının yolu kimi hamar olmadı.

1988-ci ildə Qarabağda başlayan erməni seperatizmi Qorbaçov Moskvasının ermənipərəst mövqeyi və o vaxtkı Azərbaycan rəhbərliyində olan Bağırov, Vəzirov və Mütəllibovun yarıtmaz fəaliyyəti nəticəsində getdikcə genişləndi və xalqımıza böyük məhrumiyyətlər gətirdi.

Müstəqilliyimizin ərəfəsində Qərbi Azərbaycan torpaqları bütövlükdə, Dağlıq Qarabağ ərazisi isə qismən azərbaycanlısızlaşdırıldı. Məhz Azərbaycan KP MK-nın o vaxtkı birinci katibi Əbdürrəhman Vəzirovun vecsiz siyasəti və Xalq Cəbhəsi liderlərinin naşılığı və siyasi nadanlığı ucbatından 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə Qarbaçovun əmri ilə Sovet Ordusu xalqın iradəsinə zidd olaraq Bakıya təcavüz etdi. Azərbaycan xalqı öz tarixi taleyində ən ağır, dəhşətli və faciəli 20 Yanvar Bakı qırğınını yaşadı.

Milli təfəkkürü qüsurlu, milli mənəviyyatı kasad Ə.Vəzirovun Moskvapərəst siyasətinə və Dağlıq Qarabağdakı münaqişəyə Moskvanın ədalətsiz münasibətinə etiraz hayqıraraq, küçə və meydanlara çıxmış o insanlar müstəqilliyimizin ilk qaranquşları, 20 Yanvar gecəsində Bakıda şəhid olan soydaşlarımız müstəqilliyə gedən yolumuzun bayraqdarları, bu yolda əbədiyyətə qovuşmuş azadlıq şəhidləri idilər.

Təəssüf ki, 1991-ci ilin payızında əldə etdiyimiz müstəqillik ilk illərdə çox böyük siyasi, iqtisadi, sosial problemlərlə üzləşdi.

Xalq Mütəllibovçu iqtidarla özlərini demokratik qüvvələr adlandıran bəylərin arasında qalmışdı. Təəssüf ki, o illərdə ölkədəki bütün qüvvələr güc və ağıl sahibləri bir araya gələrək müstəqilliyimizi qorumaq və möhkəmləndirmək uğrunda fəaliyyət göstərə bilmədilər, əksinə, biri digərinə qarşı müxtəlif iddialarla çıxış edərək, ölkədaxili vəziyyəti gərginləşdirdilər.

Bu dövrdə ölkə iqtisadiyyatı görünməmiş bir dərəcədə tənəzzülə uğradı, Dağlıq Qarabağın azərbaycanlılar yaşayan bütün məntəqələri boşaldıldı, Xocalı faciəsi baş verdi, Şuşa və Laçın işğal olundu, Dağlıq Qarabağ faktiki olaraq Ermənistanla birləşdirildi.

1993-cü ilin martın sonları və aprelin əvvəllərində Kəlbəcər döyüşsüz olaraq ermənilərə təslim edildi. 1993-cü ilin iyunun 4-də Gəncə hadisələri baş verdi, qardaş qanı axıdıldı, ölkə vətəndaş müharibəsi vəziyyəti ilə üzləşdi.

1991-1993-cü illər Müstəqilliyimizin ən ağır, ən qorxulu, ən təhlükəli və ən ümidsiz illəri olmuşdur. Heç də təsadüfi deyildir ki, bu illərdə Bakı sakinləri iki ilə yaxın bir müddətdə fövqəladə vəziyyət və komendant saatı şəraitində yaşadılar.



Lakin tanrının ən ağır sınaqlardan çıxardığı xalqımızın nicat günü, qurtuluş günü qabaqda idi. Bu gün Azərbaycana 1993-cü il iyunun 15-də xalqın böyük oğlu, sərkərdəsi, rəhbəri, inam və güvənc yeri Heydər Əlirza oğlu Əliyevlə birlikdə gəldi!

Xalq həmişə müdrikdir, xalq həmişə haqlıdır, xalq heç zaman səhv etmir. Azərbaycan xalqı o zaman sövq-təbii hiss edirdi ki, əldə etdiyi 3 yaşlı müstəqilliyinin itirilmə təhlükəsi lap yaxındadır, Azərbaycan bir dövlət kimi parçalanıb dünya xəritəsindən silinə bilər, milli və vətəndaş qarşıdurması genişlənib uzun illər davam edən qanlı qırğına çevrilə bilər.

Təhlükəni görən Azərbaycan xalqı təhlükəni ram etməyi bacaran yeganə xilaskarı da yaxşı tanıyırdı.

Ona görə də 1993-cü il iyunun əvvəllərindən Azərbaycan xalqı üzünü Naxçıvana tutdu, təkidli xahişlərlə öz ümummilli liderini Bakıya - ölkə paytaxtına dəvət etdi.

Azərbaycanı bürüməkdə olan yanğının qarşısını yalnız Heydər Əliyev kimi görkəmli siyasi xadim ala bilərdi. Bir neçə il sonra çox düzgün və haqlı olaraq, Heydər Əliyevin Milli Məclis sədri seçildiyi 15 iyun gününü Qurtuluş günü elan etdilər.

Mən isə həmin günü həm Qurtuluş günü, həm xilas günü, həm milli barışıq günü, həm də Müstəqilliyimizin təməl daşının qoyulduğu gün kimi qiymətləndirirəm. Müstəqilliyi əldə etməkdən onu qoruyub saxlamaq, inkişaf etdirmək qat-qat çətindir.

Bu siyasi aksiomun öz dövlətçilik təcrübəmizdə biz bir daha şahidi olduq.

Məhz H.Əliyevin siyasi iradəsi, dühası, uzaqgörənliyi, gərgin və yorulmaz fəaliyyəti nəticəsində biz artıq əldən getməkdə olan müstəqilliyimizi qoruyub saxlaya bildik, günbəgün möhkəmləndirə bildik, inkişaf etdirə bildik, onun sarsılmazlığını, dönməzliyini və əbədiliyini təmin edə bildik.

Müstəqilliyimizin 5 ili onun qorunub saxlanmasına, təşəkkül tapmasına sərf olundu.

Hətta Heydər Əliyevin hakimiyyətinin ilk 2 ilində belə müstəqilliyimiz böyük təhlükələrlə üzləşdi. Talış-Muğan və Ləzgistan seperatizminin yatırılması, 1994-cü ilin oktyabrında və 1995-ci ilin martındakı dövlət çevrilişi cəhdlərinin qarşısının alınması, müxtəlif səpkili terror aktlarının və təxribatların neytrallaşdırılması və nəhayət, 1994-cü ilin 12 mayında Ermənistan - Azərbaycan cəbhə xəttində atəşkəsə nail olunması H.Əliyev siyasi iradəsinin, uzaqgörənliyinin, qətiyyətinin uğurlu nəticəsi, müstəqilliyimizin qorunması, dövlətçiliyimizin qurulması yolunda böyük maneələrin dəf edilməsi idi.

Böyük siyasi qətiyyət və iqtisadi uzaqgörənliklə hazırlanmış və imzalanmış neft müqavilələri, bazar iqtisadiyyatına keçid şəraitində sosial iqtisadi sahədə aparılan uğurlu islahatlar, o cümlədən aqrar islahatlar və torpağın özəlləşdirilməsi, sənayenin dirçəlməsi və ticarətin inkişafı sahəsində ardıcıl olaraq görülən işlər, bank-maliyyə sistemində aparılan sağlamlaşdırıcı tədbirlər 1995-ci ildən ba-

şlayaraq, iqtisadi tənəzzülün dayandırılması və getdikcə yüksələn tərəqqi ilə öz müsbət bəhrəsini verdi və müstəqil dövlət quruculuğu üçün davamlı iqtisadi baza yaratmış oldu.

Məhz Heydər Əliyevin dönməz və qətiyyətli siyasəti nəticəsində ölkə daxilində möhkəm ictimai-siyasi sabitlik bərqərar oldu, hərbi müxalifət tərksilah edildi, silahlı quldur dəstələri sıradan çıxarıldı, milli və etnik zəmində qarşıdurma və gərginlik aradan qaldırıldı.

Məhz Heydər Əliyevin rəhbərliyi ilə Müstəqil Azərbaycanımızda dövlət quruculuğunun siyasi əsasları yaranmağa və inkişaf etdirilməyə başlandı.

1993-cü ildən bu yana ölkəmizdə iki dəfə prezident seçkiləri (1993-1998-ci illərdə) və iki dəfə Milli Məclisə deputat seçkiləri (1995 və 2000-ci illərdə) keçirilmiş, bütün seçkilərdə xalqın öz iradəsini könüllü və azad şəraitdə ifadə etməsi üçün hər cür şərait yaradılmışdır.

Prezident Heydər Əliyevin rəhbərliyi ilə Müstəqil Respublikamızın ana qanunu, bütün sivil ölkələrin konstitusiyaları ilə yanaşı, qoyula bilən və onlardan geri qalmayan Azərbaycan Respublikasının Konstitusiyası hazırlandı və 1995-ci ilin noyabr ayının 12-də keçirilən ümumxalq referendumunda qəbul edildi. Konstitusiyamızın qəbul edilməsi Müstəqil dövlətimizin qurulması yolunda atılan uğurlu addım, ən böyük nailiyyət idi.

Ölkə prezidentinin rəhbərliyi ilə Müstəqilliyimizin inkişafı üçün ölkədə azad, demokratik, sivil, hüquqi vətəndaş cəmiyyətinin yaranması sahəsində ardıcıl siyasət yürüdülürdü və bu gün də bu siyasət öz bəhrəsini verməkdədir. Ölkədə aparılan hüquqi islahatlar, Konstitusiya Məhkəməsinin, Bələdiyyələrin, Ombudsman təsisatının yaradılması, insan hüquqları və azadlığın qorunması sahəsində bir sıra qanunların qəbul edilməsi demokratiyanın inkişafına münbit şərait yaratmış, müstəqilliyimizin möhkəmliyinə etibarlı təminat vermişdir.

Komstitusiyamızın daha da təkmilləşdirilməsi, ölkədə aparılan hakimiyyət bölgüsünün və demokratik-hüquqi islahatların daha da dərinləşdirilməsi, Ana Qanunumuzun sivil dünyanın müasir tələblərinə tam uyğunlaşdırılması məqsədi ilə Konstitusiyamızın müəllifi cənab prezidentin təşəbbüsü ilə 2002-ci ilin 24 avqustunda keçirilmiş ümumxalq Referendumu dövlətçiliyimizin inkişafında yeni bir mərhələ oldu və müstəqilliyimizin daha da möhkəmləndirilməsi üçün əsaslı zəmin yaratdı.

Ölkədə demokratiya durmadan inkişaf edir, 40-a qədər siyasi partiya (onların əksəriyyəti müxalifət yönümlüdür), 400-ə qədər mətbuat və informasiya orqanı, o cümlədn özəl televiziya və radiolar fəaliyyət göstərir.

Fikir azadlığı və plüralizm həyat normasına çevrilmişdir, kimsə siyasi əqidəsinə, yaxud dini mənsubiyyətinə görə təqib edilmir. Hər kəs öz həyatını müstəqil olaraq qurur və fəaliyyətini özü müəyyən edir.

Respublikamızda milli münasibətlər sahəsində heç bir problem yoxdur. Konstitusiyamız mülki, dini, irqi və s. xüsusiyyətlərindən asılı olmayaraq, bütün Azərbaycan vətəndaşlarına bərabər hüquqlar və təlimatlar verir.



Müstəqil Azərbaycanımız beynəlxalq aləmdə öz layiqli və nüfuzlu yerini tutmaqdadır. Ölkəmiz dünyanın demək olar ki, bütün aparıcı və inkişaf etmiş ölkələri ilə iki tərəfli və çox tərəfli siyasi-iqtisadi əlaqələr qurmuşdur, bu əlaqələr gündən-günə inkişaf edir və möhkəmlənir.

Respublikamız bir sıra mötəbər beynəlxalq təşkilatların üzvüdür, respublikamızın 2001-ci ilin yanvarında müasir dünyanın ən nüfuzlu beynəlxalq qurumlarından biri sayılan Avropa Şurasına tam hüquqlu üzv qəbul olunmasını isə müstəqilliyimizin təntənəsi, əbədiliyinin və dönməzliyinin qarantlarından biri kimi qiymətləndirmək gərəkdir.

Bütün bu uğurların əldə edilməsində xalqımızın müxtəlif təbəqəsindən olan insanların əməyi olmuşdur. Ancaq tam səmimiyyəti ilə qeyd etməliyik ki, bu uğurların, eləcə də son 10 ildə əldə etdiyimiz qələbə və nailiyyətlərin yalnız bir yaradanı, bir memarı, bir sərkərdəsi vardır.

***Bu qələbələrin müəllifi bütün dünya azərbaycanlılarının ümummilli lideri, xalqımızın rəhbəri, partiyamızın əzəli və əbədi sədri, doğmamız, əzizimiz cənab Heydər Əliyevdir!***

Bu qələbələrin əldə olunmasında daha çox əməyi və haqqı olan şəxslər isə Heydər Əliyev dühasının işığına toplaşmış, yurdunu və millətini sevən, doğma xalqına və müstəqil dövlətinə sədaqətlə xidmət etməkdən qürur duyan şərəfli insanlar - Yeni Azərbaycan Partiyasının üzvləridirlər.

Üçüncü minilliyə müstəqil, hüquqi, demokratik dövləti ilə qədəm qoymuş Azərbaycan xalqının xoşbəxt olmağa tam əsası, imkanı və haqqı vardır:

- ***Ən azı ona görə ki,*** bu xalqın ən böhranlı dəqiqələrdə, «Olum ya ölüm» anında, milli mövcudiyyətinin xilası və dövlət müstəqilliyinin qorunması naminə yenidən öz yenilməz liderinin, Tanrının bu xalqı xilas etmək üçün seçib göndərdiyi fövqəl insanın — Heydər Əlirza oğlunun ətrafında birləşməyə qüdrəti çatdı!
- ***Ən azı ona görə ki,*** bu xalqın işıqlı övladları Heydər Əliyev şəxsiyyətinə, Heydər Əliyev dühasına arxalanaraq, qurtuluş partiyasını, sülh partiyasını, quruculuq partiyasını - Yeni Azərbaycan Partiyasını yaratdılar.

Artıq 10 ildir ki, Yeni Azərbaycan Partiyası iqtidardadır. İqtidarda olmaq, xalq qarşısında məsuliyyət daşımaq, cavabdeh olmaq, iş görmək deməkdir. YAP iqtidarı, Heydər Əliyev iqtidarı zamanın, tarixin və ən əsası xalqın qarşısında üzü ağdır. Çünki bu iqtidar nə iş görübsə, xalqın rifahını düşünərək, milli maraqları, dövlətçilik maraqlarını əsas götürərək görübdür.

Fəxrlə demək istəyirəm ki, YAP getdikcə daha geniş kütlələrin partiyasına, ümumxalq partiyasına çevrilməkdədir.

Bunun başlıca səbəbi partiyamızın seçdiyi dinamik inkişaf prinsipi, sivil, demokratik mübarizə yolu, nümunəvi siyasi əxlaq mədəniyyəti, sözlə əməlin birliyi, ən əsası isə, xalqın partiyamızın sədrinə olan sarsılmaz inamı və sonsuz məhəbbətidir.

Seçicilərimlə keçirilən görüşlər zamanı mən bir daha şahid olmuşam ki, artıq Azərbaycan xalqı öz torpağının yiyəsidir, öz haqqının hüququnun sahibidir, xalqının çörəyi var, sabitlik, əmin-amanlıq şəraitində yaşayışı var, sabaha ümidi, öz prezidentinə dönməz, sarsılmaz inamı var!

***Bu inamın ifadəsi kimi, görüş keçirdiyim bütün rayonlarda insanlar öz talelərini əbədi olaraq, Heydər Əliyevlə, onun partiyası ilə bağladıqlarını bildirirlər və bir səslə, 2003-cü ildə də cənab Heydər Əliyevi prezident seçəcəklərini bəyan edirlər.***

Xalqımız 21-ci əsrə öz müstəqil dövləti ilə, müdrik rəhbəri ilə, yenilməz partiyası ilə cəsarətlə qədəm qoymuşdur.

Ölkəmizdə möhkəm ictimai-siyasi sabitlik bərqərar olmuş, iqtisadi tərəqqi başlamışdır. Demokratik - hüquqi islahatlar dərinləşməkdə, xalqın sosial-rifah halı gündən, günə yaxşılaşmaqdadır.

İyirmi birinci əsrə - qloballaşma və dinamik inkişaf əsrinə, siyasətdə və dövlət idarəçiliyində yeni düşüncə tərzinin və yeni yanaşma üsullarının tələb olunduğu əsrə qədəm qoymuşuq.

Möhtərəm prezidentimizin dühası sayəsində Azərbaycan iyirmi birinci əsrdə də öz dövlətçiliyini inkişaf etdirməyə hazırdır: dövlət idarəçiliyində səriştəli, təcrübəli kadrlarla, gənc, enerjili, təşəbbüskar, yeni nəslin sintezi nəticəsində günbəgün təkmilləşən işgüzar bir komanda yaradılmışdır. Bu komandanın gələcək onilliklərdə də uğurlu fəaliyyətini təmin etmək üçün, bu sistemin içərisində yetişmiş, yeni siyasi elitaya mənsub, radikallıqdan uzaq, yüksək intellektə və praqmatikliyə malik birləşdirici kapitana ehtiyac vardır.

Siyasi varislik prinsipini özünün əsas Proqram müddəalarından biri kimi qəbul edən Yeni Azərbaycan Partiyası partiyanın sədr müavini İlham Əliyevin şəxsində öz gələcək kapitanını artıq müəyyən etmişdir.

Bu gün Azərbaycan cəmiyyəti, eləcə də beynəlxalq ictimaiyyət birmənalı olaraq, bu həqiqəti qəbul edir ki, harada İlham Əliyev var - orada təşəbbüskarlıq var, fəaliyyət var, qələbə var, nurlu sabahlara böyük inam var!

İlham Əliyev hazırda bütün dünyada tanınan, hörmət və ehtiramla qəbul edilən bir siyasət adamı kimi Azərbaycanın problemlərinin beynəlxalq səviyyədə həlli sahəsində uğurla fəaliyyət göstərir və yeni-yeni nailiyyətləri ilə öz doğma xalqına sevinc bəxş edir. Cənab İlham Əliyevin 2003-cü ilin yanvarında Avropa Şurasının Parlament Assambleyasının vitse-prezidenti seçilməsi onun beynəlxalq aləmdə nüfuzlu bir siyasətçi kimi tanınmasının bariz ifadəsi, xalqımıza şərəf və qürur gətirən tarixi hadisədir. Qeyd etmək yerinə düşərdi ki, İlham Əliyev Azərbaycan tarixində beynəlxalq aləmdə belə bir yüksək vəzifəyə seçilmiş ilk siyasi xadimdir. Heydər Əliyev siyasi irsinin layiqli davamçısı olan İlham Əliyevin gələcəkdə xalqımıza daha böyük tarixi xidmətlər göstərəcəyinə ürəkdən inanaraq, qeyd etmək istəyirəm ki, məhz İlham Əliyev kimi siyasətçini bu xalqa bəxş etməsi cənab Heydər Əliyevin Azərbaycan qarşısında gələcəyə hesablanmış misilsiz xidməti, əvəzsiz töhfəsidir.



Mən ürəkdən inanıram ki, xalqımızın xilaskarı, ümummilli liderimiz, dövlətimizin banisi və qurucusu, müstəqilliyimizin atası, möhtərəm Prezidentimiz cənab Heydər Əliyev 2003-cü ilin payızında keçiriləcək Prezident seçkilərində yenə də Xalqın tam dəstəyini qazanacaq, yenə də öz qurduğu dövlətin başında dayanacaq, həmişəki əzmi və qətiyyəti ilə uzun illər öz xalqına rəhbərlik edəcək, gələcək nəsillərə problemsiz, gündən-günə inkişaf edən və çiçəklənən Azərbaycan bəxş edəcəkdir.

... Qəhrəmanlığın ömrü qəhrəmanın tanrı tərəfindən onun üçün ayrılmış ömür payından dəfələrlə uzundur. Qəhrəmanlıq - əbədi yaşarlılıqdır.

Qəhrəmanlıq - bütün həyatını Xalqına, onun xoşbəxtliyinə həsr etmiş dahi bir insanın - Heydər Əliyevin taleyidir, bu fenomen Şəxsiyyətin mahiyyətidir.

... Zorla, silahla, xəyanətlə ram edilə bilməyən bir xalqın ruhunu, Tanrı tərəfindən seçilib göndərilən bir dahi İnsan - Göylərin Azərbaycan torpağındakı elçisi məhəbbət və alicənablıqla fəth etdi.

Xalqın ruhunda yaşayan Fövqəlinsan əbədi yaşardır, ölməzdir, daim var olmağa haqqı olandır!

... Dünyada təsadüf heç nə yoxdur. Ulduzlar qaranlıq göydə daha parlaq görünürlər. Necə ki, Azərbaycan məmləkətinin ən qaranlıq gecələrində Heydər ulduzu alışıb yanaraq, xalqının yoluna şəfəq çilədi, məmləkəti qaranlıqdan aydınlığa çıxartdı.

... Ulduzlar əbədi yaşardır... Ulduzlarca yaşamağa haqqınız var, Möhtərəm Prezident!